

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 224 (21.885)

*25 noyabr 2017-ci il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik

*Rəsmi xronika*

Belçika Krallığında işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa İttifaqı Şurasının prezidenti Donald Tuskun dəvəti ilə noyabrın 24-də Şərq Tərəfdaşlığı Sammitində iştirak edib.

Dövlətimizin başçısı Şərq Tərəfdaşlığı Sammitinin plenar sessiyasında iştirak etmək üçün Avropa İttifaqının binasına gəlib.

Avropa İttifaqı Şurasının prezidenti Donald Tusk, Avropa Komissiyasının prezidenti Jan-Klod Yunker və Avropa İttifaqına sədrlik edən Estoniyanın Baş naziri Yuri Ratas dövlətimizin başçısını salamlayıblar.

Sonra birgə foto çəkdirilib.

Sammitdə Avropa İttifaqına üzv dövlətlər altı Şərq tərəfdaşı ölkəsinin dövlət və ya hökumət başçıları ilə gələcək əməkdaşlığı müzakirə ediblər. Onlar, həmçinin Şərq Tərəfdaşlığı ölkələrinin vətəndaşlarına təsirli faydaların verilməsinə xüsusi diqqət yetirərək, Riqa Sammitindən sonrakı nailiyyətləri qiymətləndiriblər.




## Qış fəslində muxtar respublikada mavi yanacaqla təminatda fasilələr olmayacaq

Naxçıvan Muxtar Respublikasının Ali Məclisində 2017-2018-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrə əlaqədar 26 avqust 2017-ci il tarixdə keçirilən müşavirədə aidiyyəti qurumlarla yanaşı, “Naxçıvanqaz” İstehsalat Birliyinə də bir sıra tapşırıqlar verilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri deyib: ***“Təbii qazın şaxtalı hava şəraitində nəqli üçün hazırlıq işləri vaxtında başa çatdırılmalı, istismara yararsız vəziyyətə düşmüş qaz xətlərinin və avadanlıqların müəyyən edilərək yenilənməsi diqqət mərkəzində saxlanmalı, qazın nəqli zamanı meydana çıxan texniki itki normalarının minimal həddə saxlanılması üçün tədbirlər görülməli, təbii qazdan qanunsuz istifadə hallarına yol verməmək üçün nəzarət gücləndirilməli, istehlak olunan qazın dəyərinin tam həcmdə toplanılması təmin edilməlidir. Qaz təsərrüfatında, xüsusilə qəza xidmətində çalışanların peşəkarlıq səviyyəsini artırmaq məqsədilə onların ixtisas hazırlığına cəlb olunmasına diqqət artırılmalı, qış mövsümü başlayanadək işçilərin müvafiq geyim və avadanlıqlarla təmin olunması həyata keçirilməlidir”.***

Həmin tapşırıqlara əsasən muxtar respublikada təbii qaz təchizatının etibarlılığını və səmərəliliyini artırmaq, istehlakçıları fasiləsiz və təhlükəsiz təbii qazla təmin etmək məqsədilə birlikdə tədbirlər planı hazırlanıb. Plana əsasən muxtar respublikanın enerji təhlükəsizliyinin təmin olunmasında yaşayış məntəqələrinin və istehsalat sahələrinin təbii qazla təminatını həyata keçirmək üçün birlik 2017-ci ilin ötən dövründə nəzərdə tutulmuş tədbirləri reallaşdırıb.

Birlikdən aldığımız məlumata görə, muxtar respublika üzrə təbii qaz istehlakçılarının 2017-ci il 1 noyabr tarixə 85 min 573 əhali və 2253 qeyri-əhali olmaqla, ümumi sayı 878 min 26-dır.

Bəhs olunan dövrdə yaşayış məntəqələrinə daxil olan müraciətlərə əsasən 631 ədəd mənzil (ev) və müxtəlif təyinatlı obyektlər qazlaşdırılıb. Bunun 592-si əhali, 39-u qeyri-əhali abonentləridir.

Cari ilin 10 ayında avtomat qazpaylayıcı stansiyalarda istismar olunan texnoloji avadanlıqlara, təzyiq tənzimləyicilərinə, qaz qızdırıcı qurğulara, ölçü qovşaqlarına təlimata uyğun texniki xidmət göstərilib, təbii qaz istehlakçılarına qazın təsdiq edilmiş texnoloji rejimə uyğun nəqli təmin olunub.

Təbii qaz istehlakçılarının fasiləsiz və təhlükəsiz qazla təchiz edilməsi məqsədilə korroziyaya uğrayan yeraltı qaz kəmərləri yeniləri ilə dəyişdirilib və qaz sızmaları aradan qaldırılıb. Bu işlərin mütəmadi olaraq aparılması nəzarətə götürülüb. Qaz nəqli sistemi üzərində olan bağlayıcı avadanlıqlar yoxlanılıb, ehtiyac duyulan avadanlıqlarla cari təmir işləri aparılıb, istismara yararsız avadanlıqlar yenisi ilə əvəz olunub.

Məlumatda deyilir ki, muxtar respublikanın bütün yaşayış məntəqələrində istismarda olan yaşayış evlərində, ictimai təyinatlı binalarda və istehlakçılar tərəfindən istismar edilən obyektlərin daxili qaz kəmərlərinə, avadanlıqlarına qrafik üzrə texniki baxış keçirilib, tələb olunan xidmət işləri müvafiq qaydada aparılıb. Tabeli Qaz İstismar idarələrinin işçiləri tərəfindən qaz cihazlarından təhlükəsiz istifadə qaydaları haqqında abonentlər arasında maarifləndirmə və izahat işlərinə diqqət artırılıb.

Qeyd edək ki, Naxçıvan şəhərində smartkarttipli qaz sayğacları ilə əvəz olunması istiqaməti üzrə işlər davam etdirilib və cari ilin 10 ayında 2027 ədəd qaz sayğacı quraşdırılıb.

Birlik yerlərdə nəzarət tədbirlərini gücləndirib, yoxlama-nəzarət komissiyası tərəfindən reydlər keçirilərək “Qazdan istifadə qaydaları”nın tələblərinə istehlakçılar tərəfindən riayət olunması yoxlanılıb və ortaya çıxan nöqsanlar aradan qaldırılıb.

Cari ilin 10 ayında birliyə şəhər, rayon Qaz İstismar idarələrinin qəza-dispetçer xidmətlərinə təbii qaz istehlakçılarından 14 min 271 ədəd çağırış daxil olub, bu çağırışlara vaxtında gedilib, bütün işlər keyfiyyətlə yerinə yetirilərək təbii qazın nəqli bərpa olunub.

Bəhs olunan dövrdə, xüsusilə qış aylarında təbii qaza olan tələbatın artması ilə qaz nəqli sisteminin daha artıq yüklənməsi və gərgin işləməsi nəzərə alınaraq onun bu dövrdə normal istismarı işini təmin etmək məqsədilə bir sıra işlər görülüb. Belə ki, ərazilər üzrə bütün sistem boyu qaz kəmərlərinə qazanalizatorlarla xətti nəzarət və əlavə olaraq texniki baxış keçirilib, ortaya çıxan texniki nasazlıq aradan qaldırılıb, maşın, mexanizmlər, qaynaq avadanlıqları və digər texniki avadanlıqların, qurğuların texniki vəziyyəti yoxlanılıb, çətin hava şəraitində etibarlı işləməsi üçün tam yararlı vəziyyətə gətirilib.

Cari ilin 10 ayında qaz şəbəkəsində 14718 ədəd sızma aşkarlanıb, bu sızmalar aradan qaldırılıb.

Məlumatda o da bildirilir ki, qaz təsərrüfatı sisteminin müasirləşməsi, istismarda olan təzyiq və qaztənzimləyicilərinin, daşıyıcı və paylayıcı qaz kəmərlərinin, nəzarət-ölçü cihazlarının, digər texnoloji avadanlıqların yenilənməsi istiqamətində “Naxçıvanqaz” İstehsalat Birliyi işləri tam nəzarətə götürüb. Belə ki, “Naxçıvan”, “Modul”, “Qaz-Turbin – Sement Zavod” qazpaylayıcı stansiyalarında olan ROC-407 qaz sayğaclarının istismar müddətinin başa çatması və ehtiyat hissələrinin istehsalının dayanmasını nəzərə alaraq Almaniya istehsalı olan G-650 markalı Elster tipli 6 ədəd qaz sayğacı alınıb. Qeyd olunan ölçü qovşaqlarından hər birində 2 ədəd Elster tipli qaz sayğacı quraşdırılmışdır. Onlardan 1 ədədi istismara verilməklə digəri ehtiyatda saxlanılacaqdır.

Muxtar respublikada büdcədən maliyyələşən təşkilatlara istehlak olunan təbii qaz sərfinin dəqiq hesablanması, ölçülməsi məqsədilə birlik tərəfindən 70 ədəd müxtəlif təzyiqli və həcmli kollektorlar alınaraq quraşdırılıb.

Muxtar respublika qaz şəbəkəsində qazın təzyiqinin texnoloji rejimə uyğun nəqlini və normal istismarını təmin etmək üçün yeni quraşdırılan müxtəlif markalı, tipli və həcmli qaztənzimləyicilərin, manometrlərin, nəzarət-ölçü cihazlarının sayı 88 ədəd olub.

Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin xətti ilə tikilən və ya yenidən qurulan binalar, müxtəlif təyinatlı obyektlər mavi yanacaqla təmin edilib. Naxçıvan Muxtar Respublikasında 2017-ci ilin 10 ayında yeni qaz boru xətlərinin quraşdırılması, yerinin dəyişdirilməsi, korroziyaya uğramış yeraltı yol, qapı keçidlərinin yerüstü keçidlərlə əvəz edilməsi işlərinin görülməsi ilə əlaqədar 134 min 263 paqonometr uzunluğunda müxtəlif diametrli polietilen və dəmir borulardan istifadə edilib.

Müşavirədə qarşıya qoyulan vəzifələrin ardıcıllıqla yerinə yetirilməsi, qabaqlayıcı tədbirlərə ciddi önəm verilməsi, qaz təsərrüfatlarında nəzarət sisteminin gücləndirilməsi, mal-material ehtiyatının yaradılması və görülən digər işlər belə deməyə əsas verir ki, qış fəslində muxtar respublikada mavi yanacaqla təminatda fasilələr olmayacaq.

✍ **Muxtar MƏMMƏDOV**

***Naxçıvan şəhərindəki “İmamzadə” Kompleksində təmir-bərpa işləri davam etdirilir.***

## “İmamzadə” Kompleksində təmir-bərpa işləri aparılır



İlkin mərhələdə bərpaçılar tərəfindən türbənin fasad və daxili hissəsində divarlar köhnə üzlük boya və materiallardan təmizlənib, tarixi tikilinin aşağı hissəsinin rütubətdən qorunması üçün betonlama işləri həyata keçirilib. Bundan başqa, türbənin arxa hissəsindəki torpaq qatı götürülüb, istinad divarları yaradılıb, yağış sularının buraya zərər verməməsi üçün sistemlər quraşdırılıb.

Obyektin iş icraçısı Fəxrəddin Əliyev bildirdi ki, ətrafda bərkitmə başa çatdırıldıqdan sonra abadlıq işlərinə start verilib, burada müasir işıqlandırma sistemləri qurulub, əraziyə yeni dizayn verilib, günbəzlər parlaq sarı və yaşıl rəngli materialla işlənib. Bundan başqa, türbənin daxilində və xaricində bərpa işləri həyata keçirilib. Hazırda kompleksə daxil olan tikililərdə təmir-bərpa işləri davam etdirilir, əraziyə buta formasında kilid daşlar düzülür.

Təmir-bərpa işləri başa çatdırıldıqdan sonra “İmamzadə” Kompleksinin ərazisi şəhərimizin İslam mədəniyyətinə aid ən görməli yerlərindən birinə çevriləcək. Bu isə Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı seçilməsi ilə əlaqədar görülən işlərin tərkib hissəsi kimi də əhəmiyyətlidir.

Qeyd edək ki, qədim və zəngin tarixi keçmişi ilə fərqlənən Naxçıvan çoxsaylı abidələr diyarı kimi tanınır. Bu mühüm maddi və mənəvi sərvətlərimizin sırasında muxtar respublikanın müxtəlif bölgələrində yerləşən imamzadələrin özünəməxsus əhəmiyyəti, xüsusi yeri vardır. Naxçıvanın on üç əsrdən artıq bir dövrünü özündə təcəssüm etdirən bu dəyərli abidələr yalnız ölkəmizin deyil, bütövlükdə, müsəlman Şərqinin qədim sənətkarlıq, xüsusilə də memarlıq ənənələrinin, çoxəsrlik tarixi keçmişinin yadigarlarıdır.

## Sənaye məhsulu istehsalında artım dinamikası davam edir

Ölkəmizdə həyata keçirilən çoxşaxəli iqtisadi inkişaf strategiyasının əsas məqsədlərindən biri də sənaye məhsulları istehsalı ilə regionların tarazlı inkişafına, o cümlədən yerli istehsal və əmək potensialından səmərəli istifadə etməklə ixracyönümlü hazır məhsul istehsalına nail olmaqdan ibarətdir. Çünki enerji və ərzaq təhlükəsizliyi ilə bərabər, sənaye məhsulu istehsalı da ölkənin iqtisadi təhlükəsizliyinin əsas şərtlərindən biridir.

Milli iqtisadiyyatımızın hazırkı dövründə mövcud sənaye imkanlarından maksimum yararlanmaq, dinamik məhsul istehsalında dayanıqlılığı təmin etmək məqsədilə yeni istehsal müəssisələrinin yaradılması qarşıda duran əsas vəzifələrdəndir. Regional inkişafa göstərilən bu diqqət ölkəmizin bütün regionlarında, o cümlədən Naxçıvan Muxtar Respublikasında da sənayenin inkişafına imkan verib. Aparılmış məqsədyönlü tədbirlərin nəticəsidir ki, bu gün muxtar respublikada çörəkbişirmə, şəkər, mineral su, spirtli içkilər, siqaret, pivə, plastik qapı və pəncərə, plastik su boruları, hörgü və döşəmə üçün kərpic, üzlük daş, gips, gips lövhələr, əhəng, məsaməli beton, karbon qazı, metaləritmə və onlarla digər istehsal sahələri yaradılıb. Nəticədə, muxtar respublikada sənayenin müxtəlif sahələrinin inkişaf etdirilməsinə yönəlmiş kompleks tədbirlər bu sahədə müsbət nəticələrin əldə edilməsinə səbəb olub. Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsindən verilən məlumata görə, 2017-ci ilin yanvar-oktyabr aylarında 2 milyard 112 milyon 48 min 200 manatlıq ümumi daxili məhsul istehsal olunmuşdur ki, bu da 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 1,7 faiz çoxdur. Hər bir nəfərə düşən ümumi daxili məhsulun həcmi 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 4,6 faiz artaraq 4686,2 manata çatıb.

Muxtar respublikada yaranan ümumi daxili məhsulun tərkibində də ilk yeri sənaye sahəsi tutur. Sənaye üzrə 808 milyon 516 min 800 manat dəyərində məhsul istehsal edilib ki, bu da 2016-cı ilin müvafiq dövründəki göstəricini 1,5 faiz üstələyir.

**Xəbərlər şöbəsi**

*Qayalarından xınalı kəkliklərin səsi gələn, füsunkar təbiəti, buz bulaqları, "bəstəkar" şəlalələri, qollu-budaqlı "pir" ağacları, təmiz ab-havası ilə insanda xoş duyğular oyadan Havuş kəndinə doğru irəlilədikcə Şərur-Dərələyəz silsiləsinin özünəməxsus gözəllikləri, uca dağları, xoş təbiəti, təravətli havası insanı sanki sehrli bir aləmə aparır. Yolboyu adları əfsanəyə çevrilən Sırfadaşını, Əncirliyi, Hadıqayıbı, Danaqalasını seyr edə-edə Axura kəndindəki Yuxarı Bulaqdan Havuşadək olan 12 kilometr yolu, 20-dən artıq sərt döngəni və aşırımı keçib kəndə çatırıq. Kənd Havuşçayın sol sahilində, Dərələyəz sıra dağlarının ətəklərində yerləşir. Kəndi üzük qaşı kimi dövrəyə alan dağlar payız fəslində daha ecazkar görünür.*

*Müasirləşən kəndlərimiz*

# Dağlar ovcunda yaşayan kənd: Havuş





Muxtar respublikamızın ucqar kəndlərindən biri olan bu yaşayış məntəqəsi boz və sərt zirvələrin fonunda səməni kimi görünür. Bəlkə, elə buna görə kəndin adının etimoloji mənası "ovuc" kimi ifadə olunur. Ovuc-avuc-avuş söz dəyişmələrindən sonra kənd indiki Havuş adını alıb. Bu toponimin mənası dağlarla əhatə olunmuş məskən və ya "Dağ dibi" deməkdir.

Elmi mənbələrə görə, burada eradan əvvəl II-III əsrlərə aid Sarıbulaq, eramızın II-IV əsrlərinə aid edilən Havuş, IX-XVII əsrlərə aid İtqıran nekropolları, II-VI əsrlərdən qalan qəbir yerləri vardır. II-IX əsrlərə məxsus Tamaşalı yaşayış yeri, IX-XVII əsrlərdə mövcud olan Sarıbulaq oba yeri, Havuş mədən-istismar yeri və sair tarixi-arxeoloji yerlər qalmaqdadır. Havuş mədən-istismar yeri kəndin içərisində dərin dərədədir. Mədəndə aparılan araşdırmalardan məlum olub ki, buradan, əsasən, qurğuşun çıxarılıb.

1992-ci ilin mayında erməni quldur dəstələrinin aramsız hücumları nəticəsində həmsərhəd mövqedə yerləşən kənddə bir çox evlər, eyni zamanda məktəb, klub, kitabxana tamamilə dağıdılsa da, havuşlular öz el-obalarını tərk etməyiblər. Çətin zamanda Naxçıvanın müxtəlif bölgələrindən köməyə gələnlər havuşlularla çiyin-çiyinə verərək düşmənə qarşı qətiyyətlə vuruşublar.

Bu kəndin təbiət mənzərələrini əsrarəngiz edən dağların sıldırım qayalarından axan şəlalələrdir. Hələ ötən əsrin yetmişinci illərində həmyerlimiz, şair-publisist Cavad Cavadlı "Azərbaycan təbiəti" jurnalında yazırdı ki, dünyanın heç bir kəndində Havuşdakı qədər şəlalə yoxdur. Burada hündür dağların zirvəsindən axan irili-xırdalı 12 şəlalə mövcuddur. Zirinc, yemişan, yabanı armud, həmərsin, ardıc, dağdağan, əppəkli, qaraca, böyürtkən ağacları və kolları, bumbuz bulaqlar adamı heyran edir. Dağlarında ayı, bəbir, canavar, çöl pişiyi, dağ qoyunu, dağ keçisi və başqa heyvanlar yaşayır, daşdan-daşa xınalı kəkliklər səkir.

70 illik sovetlər dövründə bu dağ kəndinin insanları hər hansı kiçik bir məsələ üçün uzun məsafələr qət edib, rayon mərkəzinə və şəhərə üz tuturdular. Kiminsə qəflətən ağır xəstələnməsi isə bir çox hallarda faciə ilə nəticələnirdi. Yaşlı kənd sakinləri deyirlər ki, vaxtilə burada yaşayanlar əqrəb-ilan sancması zamanı tibbi yardımdan yararlana bilmədiklərinə görə, türkəçarəyə üz tutur, bu da bir çox hallarda mənfi nəticələrə yol açırdı. Bağlarda yetişən məhsulları bazara çıxarmaq, ondan gəlir əldə etmək də müşkül məsələ idi. Qış aylarında ətraf kəndlərlə əlaqə, demək olar ki, tamamilə kəsilirdi. Yəni Havuş, necə deyərlər, Allah ümidinə qalmışdı. Ancaq ulu öndərimizin Naxçıvana gəlişindən sonrakı illərdə havuşlular da diqqət və qayğıdan bəhrələnməyə başladılar. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin ucqar dağ kəndlərinə xüsusi diqqət və qayğısının bəhrəsi olaraq kəndə fasiləsiz elektrik enerjisi, mavi yanacaq verildi, yollar abadlaşdırıldı, şəhərdəki infrastruktur obyektlərindən heç də seçilməyən binalar inşa olundu. Yanacaq olmaması səbəbindən payız aylarında balta səsləri gələn bağlar yenidən dirçəldildi, əkin sahələrində müasir texnikaların səsləri eşidildi. Təbii ki, bütün bunlar Havuş sakinlərini daha möhkəm tellərlə öz el-obasına bağladı, kənddə yeni evlərin-ocaqların sayı artdı.

1872 hektar ərazisi olan kəndin biçənək və otlaq sahələri sakinlərin heyvandarlıqla məşğul olmaları üçün hərtərəfli imkanlar yaradır. Cəmi 13 hektar əkinəyararlı ərazisi olan kənddə iqlim şəraitinə uyğun bir çox mədəni bitkilər əkilir. Havuşda yetişdirilən meyvə-tərəvəzin dadı dillər əzbəridir. Elə ona görədir ki, hər il məhsul yığımı mövsümündə əkinçi və bağbanlar müştəri sarıdan çətinlik çəkmir, elə qapılarındaca bu məhsullardan yaxşı qazanc əldə edə bilirlər.

Kənd məktəbinə yaxınlaşırıq. Günorta saatlarında kənddəki məktəbin qarşısında bir neçə şagird diqqətimizi çəkir. Maraqlı burasıdır ki, burada gələcək perspektivlər nəzərə alınaraq inşa edilən 60 şagird yerlik məktəbdə cəmi 11 şagird təhsil alır. Muxtar respublika rəhbərinin diqqət və qayğısı sayəsində bu gün elə məktəblərimiz var ki, orada şagird sayı çox az olsa da, bu, müəllim kontingentinə təsir etmir. Aparılan humanist siyasət nəticəsində ucqar dağ kəndlərində, eləcə də Havuş məktəbində işləyən hər bir müəllim dövlətimizin diqqət və qayğısı ilə hərtərəfli təmin olunub, sözsüz ki, bu addımlar gənc pedaqoqların məşğulluğuna da öz müsbət təsirini göstərib...

Məktəbdə təhsilin yüksək səviyyədə təşkili üçün bütün müasir avadanlıqlar, kompüter sinfi, kitabxana, elektron lövhə, laboratoriya və kabinələr təşkil olunub. Yaradılmış şəraitə görə bu məktəb şəhər məktəblərindən heç də fərqlənmir. Bu, muxtar respublikamızda son illərdə təhsil sahəsinə göstərilən ardıcıl dövlət qayğısının nümunəsi və bəhrəsidir.

Kənd məktəbinin həyatında Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi Həsən Həsənov, məktəbin direktoru Mehman Həsənov və başqaları ilə görüşüb həmsöhbət olduq. Onların söhbətləri dünənin çətinlikləri, bu günün nailiyyətləri barədə oldu. Hiss edilirdi ki, bu gün əldə edilən uğurlara, göstərilən dövlət qayğısına görə böyük fəxarət hissi keçirirlər. Onlarla söhbətimdən yadda qalanları sizinlə də bölüşməyi lazım bildim:

– 1988-ci ildən başlayan erməni xəyanəti nəticəsində bir neçə dəfə Havuşdakı qadın, qoca və uşaqlar aşağı kəndlərə köçürüldülər. Bu hadisələr yayın istisində də oldu, qışın şaxtasında da. Bir sözlə, çox əziyyət çəkdik. Evlər, bağ-bağçalar erməni toplarından atılan mərmilərə tuş gəldi, yanan evlər də oldu, yerlə bir edilənlər də. Elə məktəb binamız da düşmənin gözünə tez "batdı". Burada uşaqlara təhsil vermək mümkün olmadığı üçün onları ətraf kəndlərin məktəblərinə göndərməyi qərara aldıq. Şagirdlərimiz kənddən aralanmaq istəməsələr də, bizim təkidimizlə qonşu Axura, Həmzəli kəndlərində və digər kəndlərdə təhsil almaq məcburiyyətində qaldılar. Ancaq ulu öndərimizin səyi nəticəsində ordumuz formalaşdıqdan sonra düşmənə layiqli cavab verildi, beləliklə də, onlar gözünü Havuşdan çəkdi. Son iki onillikdə Havuş davamlı inkişaf yoluna qədəm qoyub. Bu gün kəndi göz bəbəyi kimi qoruyan ordumuzun əsgərləri ən müasir silahlarla səngərlərdə, nəzarət məntəqələrində, postlardadır. Artıq hər bir havuşlu bilir ki, onu qoruyan güclü ordusu var, elə bu amil hər kəsi öz torpağına daha möhkəm tellərlə bağlayır.

Məktəbin müəllimləri Cavad və Elmira İbrahimovlar, Mərdan Hüseynovla söhbətimiz də maraqlı məqamlarla yadda qaldı: – Bu gün müəllimlər dövlətimizin hərtərəfli qayğısı ilə əhatə olunublar. Bizim üçün dövlətimiz tərəfindən yeni evlər inşa olunaraq istifadəmizə verilib. Bu gün muxtar respublikamızın digər kəndləri kimi, Havuşda da yeni əmək fəaliyyətinə başlayan gənc mütəxəssislər üçün bir sıra güzəştlər, stimullaşdırıcı tədbirlər müəyyənləşdirilib. Kənddə 3 il müddətində bu fəaliyyəti davam etdirən 35 yaşadək gənc mütəxəssislərə kommunal xidmətlərini ödəmək üçün 60 manat, əmək fəaliyyətinə yeni başlayan hər bir nəfər üçün 3 il müddətində əməkhaqqına hər ay 100 manat məbləğində əlavələr ödənilir. Üçillik müddət bitdikdən sonra kəndimizin məktəbində pedaqoji fəaliyyətini davam etdirən gənc mütəxəssislərə daha 2 il müddətində əməkhaqqına kompensasiya əlavə olunur. Eyni zamanda iş yerlərinə göndəriş almış gənc mütəxəssislərə yol xərci, əmlakın daşınması üçün nəqliyyat xərci və ilkin yaşayış şəraitinin yaradılması məqsədilə əməkhaqqının 2 misli həcmində birdəfəlik yardım ödənilir. Bundan başqa, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 22 iyun tarixli Sərəncamı ilə bilik və bacarıqlarımızın diaqnostik qiymətləndirilməsi aparılıb, həftəlik dərs yükümüz və əməkhaqlarımız artırılıb. Yeni qaydalara görə, 5 ildən artıq dağ kəndində müəllim kimi fəaliyyət göstərən pedaqoji profilli gənc kadrlara ipoteka kreditinin verilməsi də nəzərdə tutulub. Bütün bunlar isə muxtar respublikamızda gənc müəllimlərə göstərilən dövlət qayğısının bariz nümunəsidir. Hazırda məktəbimizdə gənc kadrlar çalışır. Bu, bizi çox sevindirir.

Ən müasir üslubda inşa edilən kənd mərkəzində inzibati ərazi dairəsi üzrə nümayəndə Möhbalı Məmmədovla söhbət etdik. O dedi: – Bu gün Havuş səliqə-sahmanı ilə də digər yaşayış məntəqələrinə nümunədir. Tikilənləri-qurulanları göz bəbəyi kimi qoruyuruq. Havuşluların əsas məşğuliyyəti heyvandarlıq və arıçılıqdır. "Dərə biçənək", "Kələkli yer", "Tamaşalıq", "Orta kəfşən", "Hacı yeri", "Üçtəpə", "Qıblabulaq", "Ardıclı" kimi yurd yerlərindən biçənək kimi istifadə edirik. Kənddə 85 baş iribuynuzlu, 1300-dən artıq xırdabuynuzlu heyvan, 300 arı ailəsi vardır. Kənd sakini Əli Əliyev 70 arı ailəsinə qulluq edir, İlham Məmmədovun 400-dən çox müxtəlif növ alma ağacları olan bağı gələn il məhsul verəcək.

Kənd bələdiyyəsinin sədri Cavad İbrahimov, kitabxanaçı Aynur Musayeva, klub müdiri Əbülfəz İbrahimov, feldşer-mama məntəqəsinin müdiri Səyyarə Məmmədova da görülən işlərdən, onlara göstərilən qayğıdan, iş şəraitinin yaxşılığından söz açdılar.

Kəndin qocaman sakinləri Havuşda yerləşən pir haqqında danışdılar. Dedilər ki, Havuş piri kəndin şimal-şərqində, sıldırım qayalar arasında bir mağaradır. Pirin dərinliyi 15, eni isə 3, bəzi yerlərdə isə 4 metrə qədərdir. Giriş hissəsi tacvarı formadadır, içərisində cızma və qazma üsulu ilə həkk edilmiş bir neçə əli nizəli döyüşçü rəsmi vardır. Qədim insan məskəni ehtimal olunan mağaranın pirə çevrilməsi əcdadlarımıza olan ehtiramla bağlıdır. Pirdən bir az o tərəfə "Təkarmud" deyilən bir yer də vardır ki, həmin ağacın qol-budaqlarına övlad arzusunda olan gəlinlər niyyət edib Allahdan pay istəyər, gətirdikləri rəngli parçaları budaqlara bağlayarlar, kişilər isə Allah yolunda qurbanlar kəsib ətini kənddəki yoxsullara ehsan edərlər.

*Beləcə, Havuş kəndi insanlarının mərdliyi, qorxmazlığı, çalışqanlığı sayəsində əhatəsində olduğu dağlardan da əzəmətli görünür.*

**Ramiyyə ƏKBƏROVA**

# Yeni üzüm bağı salınıb



*Son illər muxtar respublikada meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə dövlət proqramlarının uğurlu icrası əhalinin ərzaq məhsullarına olan tələbatını ödəməklə yanaşı, məşğulluğun təmin edilməsinə də stimul verib. Bu sahədə aparılan ardıcıl tədbirlər hesabına Babək rayonunda da yeni üzüm bağı salınıb.*

Naxçıvanda hər il iməciliklər yolu ilə salınan bağların sayı artır. Bir zaman çılpaq, miskin don geyinmiş boz təpələr, çöllər bu gün yaşıllığa qərq olub. Böyük təşəbbüskarlıq və kütləviliklə keçirilən iməciliklərdə iştirak edən ictimaiyyətin nümayəndələri yeni tinglər əkir, əvvəlki illərdə əkilmiş ağacların qayğısına qalırlar.

"2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı" bu sahənin inkişafına stimul verən daha bir mərhələnin əsasını qoyub. Təkcə ötən il Uzunoba Su Anbarının yaxınlığındakı ərazidə 2 hektar sahədə 2500-ə yaxın üzüm tingi əkilib.

Son olaraq bu ilin noyabr ayında Babək qəsəbəsində 2 hektarlıq ərazidə yeni üzüm bağı salınıb. Bağda 3080 ədəd üzüm tingi əkilib. Əkin zamanı Naxçıvanın yerli üzüm sortlarından olan ağ tayfı, ağ aldərə, hənəqırna, qırmızı kişmişi növlərindən istifadə olunub. Yeni üzüm bağlarının salınması istehsalın həcminin artmasına, daxili bazarda bu məhsula olan tələbatın yerli imkanlar hesabına ödənilməsinə şərait yaradır, görülən işlər Naxçıvanda üzümçülüyün əvvəlki şöhrətinin özünə qaytarılmasına xidmət edir.

**Muxtar RZAZADƏ**

***Naxçıvan şəhərinin "Əlincə" məhəlləsindəki 20 nömrəli binada qiyməti ucuzlaşdırılan mallar mağazası yaradılıb.***

# Qiyməti 50 faizədək ucuzlaşdırılmış mallar mağazası istehlakçıların yolunu gözləyir



Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, mağazada satılan məhsullar analoji məhsullarla müqayisədə 50 faizədək ucuz qiymətlərlə istehlakçılara təqdim olunur.

Qeyd edək ki, burada mövsümü keçmiş geyimlər, gömrük-keçid məntəqələrindən bəyan edilmədən gizlədilərək keçirildiyinə görə müsadirə edilmiş məhsullar, şirkətlər tərəfindən endirim kampaniyaları tətbiq olunan mallar satışa çıxarılıb.

Hazırda mağazada çay, alma sirkəsi, müxtəlif spirtli içkilər, meyvə şirələri, enerji içkiləri, kimyəvi təmizləmə məhsulları, polietilen torbalar və digər məhsullar vardır. 5 bölmədən ibarət mağazada satışı həyata keçirilən məhsullar aidiyyəti ekspertizadan keçirildikdən sonra satışa çıxarılır.

**Xəbərlər şöbəsi**

# Naxçıvan Muxtar Respublikası Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurasının VIII konfransı keçirilib

***Noyabrın 24-də Naxçıvan Muxtar Respublikası Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurasının VIII konfransı keçirilib.***

Konfransa Naxçıvan Muxtar Respublikası Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurası sədrinin müavini Sultan İsmayılov sədrlik edib. Konfransın gündəliyi təsdiq edildikdən sonra Sultan İsmayılovun hesabat məruzəsi dinlənilib. Qeyd olunub ki, fəaliyyətini təşkilatın Nizamnaməsinə və iş planına əsasən quran Şura 1 şəhər və 7 rayon veteranlar təşkilatını əhatə edir. Təşkilatlarda 33 Böyük Vətən müharibəsi, 641 arxa cəbhə, 101 Silahlı Qüvvələr, 3938 əmək veteranı, 543 Böyük Vətən müharibəsi iştirakçılarının dul arvadları qeydiyyatdadır.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurası hesabat dövründə dörd dəfə idarə heyətinin iclasını keçirmişdir. Həmin iclaslarda iş planları, tədbirlərin icrası müzakirə olunaraq müvafiq qərarlar qəbul edilmişdir. Şura şəhər və rayon veteranlar təşkilatları ilə birlikdə gənclərin hərbi xidmətə yola salınmasında və gənc hərbçilərin andiçmə mərasimlərində iştirak edir, gənclərə hərbi-vətənpərvərlik ruhunda tövsiyələr verir. Veteranlar mütəmadi olaraq hərbi hissələrdə olur, əsgərlərlə görüşlər keçirir və onlarda yüksək hərbi-vətənpərvərlik ruhu yaradır.



Hesabat məruzəsi ətrafında müzakirələrdə Naxçıvan Muxtar Respublikası Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurası Babək və Sədərək Rayon təşkilatlarının sədrləri Həsən Həsənov və Teymur Quliyevin çıxışları dinlənilib.

Sonra Naxçıvan Muxtar Respublikası Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurasının Nizamnaməsi oxunub və səsə qoyularaq yekdilliklə qəbul olunub.

Konfransda idarə heyətinin 5 nəfərdən ibarət yeni tərkibi seçilib. Naxçıvan Muxtar Respublikası Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurası Ordubad Rayon Təşkilatının sədri Fərrux Nağıyev Firudin Süleyman oğlu Süleymanovun Naxçıvan Muxtar Respublikası Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurasının sədrliyinə namizədliyini irəli sürüb. Təklif səsə qoyulub və qəbul olunub.

Firudin Süleymanov göstərilən etimada görə minnətdarlığını bildirərək qeyd edib ki, fəaliyyətini günün tələbləri səviyyəsində quracaq, gənc nəsillə bağlı işə diqqətini artıracaq, vətənpərvər gəncliyin yetişdirilməsinə, milli dəyərlərin, adət-ənənələrin yaşadılmasına öz töhfəsini verəcəkdir.

Konfransda Naxçıvan Muxtar Respublikası Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurasının Nəzarət-Təftiş Komissiyasının da yeni tərkibi müəyyənləşib. Komissiyanın üzvlüyünə namizədlər səsə qoyulub və qəbul olunub. İsmayıl Yaqub oğlu Hüseynquliyev Nəzarət-Təftiş Komissiyasının sədri seçilib.

Konfransda Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının rəhbəri Əli Həsənov çıxış edərək Naxçıvan Muxtar Respublikası Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurasının İdarə Heyətinə yeni seçilən üzvləri təbrik edib və onlara fəaliyyətlərində uğurlar arzulayıb.

Bildirilib ki, Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurası, onun şəhər və rayon təşkilatları dövlət qayğısı ilə əhatə olunmuş, fəaliyyət üçün zəruri iş şəraiti yaradılmışdır. Bununla yanaşı, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı sayəsində muxtar respublika veteranlarının sosial problemləri həll edilir, onların yubileyləri qeyd olunur, veteranlarla görüşlər keçirilir, onlar sanatoriya və kurortlara göndərilir, mənzillərlə, minik avtomobilləri ilə təmin olunurlar. 1941-1945-ci illər müharibəsində qələbənin ildönümləri ilə bağlı hər il muxtar respublikada tədbirlərin keçirilməsi də yaşlı nəslin, veteranların əməyinə verilən yüksək qiymətin ifadəsidir.

Vurğulanıb ki, cəmiyyətimizdə yaşlı nəslə böyük hörmət var. Şura, onun şəhər və rayon təşkilatları yaradılan şəraitdən səmərəli istifadə edir, şuranın nüfuzunun yüksəldilməsi, veteranların ictimai həyatda fəallığının artırılması istiqamətində mühüm addımlar atır, tədbirlər keçirir, gənclərin orduya hazırlanmasında, hərbi-vətənpərvərlik və milli-mənəvi tərbiyəsində, Silahlı Qüvvələrin şəxsi heyətlərinin mənəvi-psixoloji hazırlığının yüksəldilməsində yaxından iştirak edir. Bu istiqamətdə fəaliyyət daha da artırılacaqdır.

Gündəlikdə duran məsələlərin müzakirəsi yekunlaşdıqdan sonra Naxçıvan Muxtar Respublikası Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurasının VIII konfransının qərar layihəsi oxunub və qəbul olunub.

Bununla da, Naxçıvan Muxtar Respublikası Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurasının VIII konfransı öz işini başa çatdırıb.

**“Şərq qapısı”**

*Jurnalist araşdırması*

# Naxçıvanlı İslam alimləri haqda kiçik qeydlər

***Azərbaycanda İslam dininin qəbulundan sonra qədim Naxçıvan torpağı əsrlər boyu İslam aləminin böyük alimlərini yetişdirib. İstər orta əsrlərdə, istərsə də yeni və müasir tarixdə naxçıvanlı İslam alimləri dinimizin təbliği üçün böyük işlər görüblər. Bu gün Naxçıvan Muxtar Respublikasında İslam mədəniyyətinə aid çoxsaylı abidələrin olması da onu sübut edir ki, İslam dininin, ümumilikdə, Qafqazda təşəkkül tapmasında Naxçıvan qısa müddətdə mühüm mərkəzlərdən birinə çevrilib, İslamın qədim Bizans torpaqlarında yayılmasında naxçıvanlı alimlərin böyük rolu olub.***

Türkiyənin Dəyanət Vəqfinin internet resurslarında və arxiv sənədlərində İslam alimləri ilə bağlı apardığımız araşdırmalar zamanı bir neçə naxçıvanlı alim haqqında dəyərli məlumatlar əldə edə bildik. Bu məlumatların oxucular üçün də maraqlı olacağını düşünürük:

Yaqut əl-Həməvi “Mücəməl Buldan” əsərində Əbubəkr Əhməd Həccaf oğlu əl-Azəri Naxçıvani haqda yazır ki, o, mühəddis (hədis alimi) olub. Dəməşqdə təhsil alan alim buradakı ilahiyyatçılardan Peyğəmbərimizlə bağlı hədislər dinləmiş, daha çox hədis öyrənmək üçün səyahətə çıxmışdı. O, Dəhdah və Sari Məhəmməddən, Harran (Türkiyə) vilayətində Əbülhəsən Məhəmməd Vaqifidən, Tunisdə Əbülabbas Vəşaoğlundan hədislər dinləmiş, araşdırmalar aparmışdı. Bundan başqa, onun hədis dinlədiyi din alimləri arasında Əbucəfər Məhəmməd və Übeydullah Məhəmməd də vardı. Sonralar o, İslam alimlərindən topladığı hədis mirasını gənc alimlərə söyləməyə başlamışdı. Abbas Hüseyn oğlu Naxçıvani, Həsən Abdullah, Saleh Şüeyb Təbrizi, Məhəmməd Kürdan, Əbülfəth Saleh Əhməd oğlu əl-Azəri, Abdullah Məhəmməd Musa oğlu əl-Azəri ondan hədis dinləmişdilər. XI əsrdə yaşadığı məlumdur.

Əbdül Kərim Ər Rafi “Ət Tədvin fi Əhbəri Qəzvin” əsərində Məhəmməd Həsən oğlu Naxçıvanidən bəhs edir. Kitabda qeyd edilir ki, o, şafii məzhəbinə mənsub mühəddis və fiqh (İslam hüququ) elmləri alimi idi. Məhəmməd Həsən oğlu Naxçıvani Əbül Həsən Dəməşqidən hədis dinləmişdi. Hicri tarixi ilə 388-də (miladi 998) Qəzvin şəhərində Rəbiə əl-İclidən dərs almışdı. X-XI əsrlərdə yaşadığı məlumdur.

İbnul Fuvatinin “Məcməül Ədəb” əsərində daha bir naxçıvanlı İslam alimi – Şeyxül-İslam Əlaəddin Əbu Abdullah Məhəmməd İsa oğlu Naxçıvani haqqında yazılıb. Tarixi qaynaqlara görə, o, XIII əsrdə yaşayıb, Azərbaycanın bir çox vilayətlərində qazı (şəriət hakimi) olaraq çalışıb. Yaşadığı dövrdə fiqh elminin böyük alimlərindən biri kimi tanınıb. İbnül Fuvati onu “Şeyxü-meşayixil-İslam” – “Bütün şeyxlərin şeyxi” kimi vəsf edib. Şeyxül-İslam Əlaəddin Abdullah Məhəmməd İsa oğlu Naxçıvani həm də böyük ədib olub və dövrünün şairləri arasında qəzəlxan kimi tanınıb. Ölüm tarixi məlum deyil.

İbn Məkulənin “Əl-İkmal” və Səmaninin “Kitabül-Ənsab” əsərlərində daha bir naxçıvanlı İslam alimi haqda söhbət açılır. Bu şəxs Əbuhatim Əbdürrəhman Əli oğlu Naxçıvanidir. O da mühəddis olub. Übeyd Əl-Məşriqi və Büceyd Məhəmməd oğlu Büceydidən hədis dinləmiş və onu başqalarına nəql eləmişdi. Xudadad Asim oğlu Naxçıvani, vaiz Əbutahir İbrahim Səlmasi də onun tələbəsi olmuş, ondan hədis öyrənmişdilər. X-XI əsrlərdə yaşayıb.

Əbdül Kərim Ər-Rafinin “Ət Tədvin fi Əhbəri Qəzvin” əsərində adıçəkilən İslam alimlərinin arasında daha bir naxçıvanlı fəqih vardır. Bu, Məhəmməd Əli oğlu Naxçıvanidir. O da mühəddis olub. Əbdül Kərim Ər-Rafi kitabda onu “Əl-Qazi” ləqəbi ilə tanıdıb. Alimin qeydində Məhəmməd Əli oğlu Naxçıvaninin döyüşçü, müctəhid olduğu məlum olur. Çox ehtimal ki, o Azərbaycan Atabəylərinin ordusunda xidmət edib. Çünki onun yaşadığı dövr Eldənizlər hakimiyyəti illərinə təsadüf edir. Əbdül Kərim Ər Rafi, eyni zamanda Məhəmməd Əli oğlu Naxçıvaninin mömin və saleh bir adam kimi tanındığını yazıb. O, miladi 1195-ci ildə Qəzvində bu şəhərin qazısı Hüseyin Bəhramoğludan hədis dərsləri alıb.

İbn-ül Fuvatinin “Məcməül Ədəb” əsərində daha bir naxçıvanlı alim haqqında danışılır. O şəxs Fəxrəddin Əhməd Qəribşah oğlu Naxçıvanidir. Dövrünün ən tanınmış təbiblərindən, həm də ədiblərindən biri olub. O, XII-XIII əsrlərdə yaşayıb.

Şeyx Muhyəddin Naxçıvani isə şafii məzhəbinə mənsub fəqih olub. İbnül-Fuvati onun əslən tuslu olduğunu, onu Arranda sultanın, ehtimal ki, Elxani hökmdarı Olcaytunun düşərgəsində gördüyünü, burada Muhyəddin Naxçıvaninin şafii fəqihlərinin rəisi Raziyəddin Hüseyni ilə görüşdüyünü qeyd edir. İbn Fuvati həmçinin Naxçıvanda daşınmaz əmlak və sərvət sahibi olan şeyx Muhyəddin Naxçıvaninin tanınmış şeyxlərin nəslindən olduğunu yazıb.

Əbubəkr Əhməd Naxçıvani də şafii məzhəbinə mənsub mühəddis olub. 973-cü ildə Qəzvinə gələrək burada hədis dərsləri verib. Əbu Bəkr Əhməd Naxçıvani Qasım Mühamili, Hüseyn Mühamili, Əbülhəsən Müseysidən hədis dinləmiş və nəql etmişdi. Əbdülkərim Rafii öz əsərində nəql silsiləsində Əbubəkr Naxçıvaninin hədislərindən birini qeyd edib.

Şeyx Səlahəddin Həsən Naxçıvani Azərbaycanın tanınmış təsəvvüf şeyxlərindən idi. O, 1206-cı ildə Naxçıvanda anadan olmuşdu. 1231-ci ildə moğol noyanı Cormağunun Azərbaycanı işğalı vaxtı Səlahəddin Naxçıvani moğollara əsir düşmüşdü. O, təqribən, yeddi il moğolların əlində əsir olmuş, əsirlikdən azad olduqdan sonra Bulğari nisbəsi ilə tanınmışdı. Bu illərdə təsəvvüfə meyil etmişdi. Şeyx Səlahəddin Naxçıvani təsəvvüfdə fütuvvət əhlinin yolunu mənimsəmiş və Əbun-Nəcib Sührəvərdinin də daxil olduğu bir məşayix silsiləsinə intişab etmişdi. Şeyx Səlahəddin Naxçıvani kubraviyyə təriqəti şeyxi Sədəddin Həmmuyənin müridlərindən biri olmuş və fütuvvət məşrəbini də bu yolla mənimsəmişdi. Səid Nəfisi şeyx Səlahəddin Naxçıvaninin şeyx Sədəddin Həmmuyənin, “Risaləyi-Qəlbül-Münqəlib” adlı əsərini ərəbcədən farscaya tərcümə etdiyini bildirib. Şeyx Səlahəddin Naxçıvani Mavəraünnəhrə getmiş və üç il Buxarada yaşamışdı. Daha sonra, təqribən, 1250-ci ildə Azərbaycana gəlmiş və 1273-cü ildən sonra 24 il Kirmanda yaşamış, 1298-ci ilin fevralından sonra isə Təbrizə gəlmişdi. Şeyx Səlahəddin Naxçıvani 1298-ci ilin 8 dekabrında Təbrizdə vəfat etmiş və Surxab qəbiristanlığında dəfn edilmişdi. Şeyx Səlahəddin Naxçıvani, yuxarıda haqqında bəhs etdiyimiz tərcümə əsəri ilə yanaşı, təsəvvüf şeirlərinin də müəllifi idi.

Şeyx Şəmsəddin Naxçıvani şafii məzhəbinə mənsub mühəddis idi. İbrahim Hübubi, Əli Harun, Əli Vani, Əbülabbas Əhməd Məqdisi, Əbdürrəhim Minşavi və Əbülhəsən Qəyyimdən hədislər dinləmişdi. Şeyx Şəmsəddin Muhəmməd Naxçıvani zahirən xoşsimalı olmaqla yanaşı, ləyaqətli, cəsur və dərin zəka sahibi insan idi. Qahirədəki Səidüs-Süəda xanəgahının şeyxi idi və burada hədis tədrisi, irşad və mənəvi tərbiyə ilə məşğul olmuşdu. Şeyx Şəmsəddin Naxçıvani 19 avqust 1337-ci ildə şeyxi olduğu xanəgahında vəfat etmiş və sufiyyə qəbiristanlığında dəfn edilmişdi.

Vəzir Fəxrəddin Əbülfəzl Muhəmməd Naxçıvani əsilzadə və vəzir ailəsində yetişmiş şəxs idi. Eldənizlərin hakimiyyəti dövründə Naxçıvanda divanül-istifada qulluq edib. Lakin o, bütün var-dövlətini, vəzifəsini və dünya işlərini buraxaraq Əhərə getmişdi. Burada sufi şeyxi Qütbəddin Əbdülqadir Əhərinin xidmətinə daxil olmuş və onun əlindən xirqə geyərək təsəvvüf yoluna qədəm qoymuşdu. İbnül-Fuvati Fəxrəddin Əbülfəzl Naxçıvanini 1261-ci ildə Əhərdə gördüyünü, onun kafirlərin əlindən qaçdığını qeyd etmişdir. İbnül-Fuvati yazırdı: “Onu daha sonra, 1272-ci ildə Marağada gördüm. Nəsirəddin Tusi onunla görüşmüş, ona ehtiramını bildirərək təqdir etmişdi”. İbnül-Fuvatinin bildirdiyinə görə, Fəxrəddin Əbülfəzl Naxçıvani həmçinin şair idi və farsca gözəl şeirlər deyirdi. Fəxrəddin Əbülfəzl Naxçıvani 1279-ci ilin noyabrında vəfat etmişdi.

İslam alimlərindən mövlana Məhəmməd Naxçıvani də təsəvvüf əhlinə mənsub idi. Təqribən, XV-XVI əsrlərdə Osmanlı dövlətində yaşamış mövlana Məhəmməd Naxçıvaninin həyatı haqqında ətraflı məlumat yoxdur. O, mənəviyyat, tərbiyə, irşad və İslam əxlaqına dair “Füsul Mərifətüt-Təlbis” və “Üsulit-Təmyiz beynət-Təsəvvüf vət-Tədlis”, “Tərifüt-Təlbis” və “Təbyidi-İblis” və “Tərcümeyi-Əxlaqi-Muhsinin” adlı əsərlərin müəllifi idi. Bunlardan ilk ikisi ərəbcə, sonuncusu isə türkcə qələmə alınmışdı. “Füsul Mərifətüt-Təlbis”in bilinən tək nüsxəsi Türkiyənin Kastamonu şəhərində, Tərifüt-Təlbisin məlum olan yeganə nüsxəsi isə Konya şəhərində saxlanılır.

Naxçıvanlı İslam alimləri təkcə İslam elmləri sahəsində fərqlənməyib, həm də qonşu xalqlarda elm sahəsinin inkişaf etməsinə də öz töhfələrini veriblər. Heç kəsə sirr deyil ki, ən böyük farsca orfoqrafiya lüğəti Əkbər şah dönəmində Camal İncu tərəfindən yazılan “Fərhəngi-Cahangiri”dir. Bundan sonra da bir sıra alimlər tərəfindən lüğətlər tərtib edilib, bu lüğətlərdə böyük şairlərin divanlarından istifadə olunub. Qətran Təbrizi yalnız iki divandan söz mənbəyi kimi istifadə edərkən, Əsəd-i Tusi “Lüğəti-Fürs-i Əsədi” adlı əsərində Səmərqənd, Mərv, Bəlx, Sistan və Xorasan şairlərinin 75 divanından mənbə olaraq faydalanıb.

2016-cı ilin 3-4 noyabr tarixlərində Türkiyə Respublikasının Əskişəhər Osmanqazi Universitetində keçirilən “Beynəlxalq lüğət simpoziumu”nda alim Fərzanə Dulabadinin elmi məruzəsində qeyd edilib ki, Əsəd-i Tusinin “Lüğəti-Fürs-i Əsədi” əsərini (bəzi mənbələrdə bu əsərin Naxçıvanda yazıldığı qeyd edilir) 1326-cı ildə yenidən tərtib edərək mükəmməl bir iş ortaya çıxaran naxçıvanlı İslam alimi olub. Tarixi mənbələrə görə, Şəmsəddin Məhəmməd Fəxrəddin oğlu Naxçıvani adı ilə tanınan bu şəxs fars dili tarixində bir ilkə imza atıb və minlərlə sözdən ibarət lüğət yaradıb. Ondan sonra “Sihahül-fürs”, “Fərhəngi-Qavas”, “Töhfətül-Əhbab”, “Fərhəngi Vəfai”, “Fərhəngi-Cahangiri”, “Fərhəngi Rəşidi”, “Fərhəngi Şüruri”, “Bürhani-Qatı” kimi bir çox fars dili lüğətləri ortaya çıxsa da, ən mükəmməl əsərin Şəmsəddin Məhəmməd Fəxrəddin oğlu Naxçıvaniyə aid olduğu dilçi alimlər tərəfindən təsdiq edilir.

Bu məlumatlardan da göründüyü kimi, naxçıvanlı alimlərin İslam dininin bölgədə daha möhkəmlənməsində böyük rolu olub. Yuxarıda adıçəkilən şəxslər yalnız kiçik bir zaman kəsiyində yaşayaraq, hədis elmində və digər elmlər sahəsində ən uca mərtəbələrə yüksəliblər. Bir sözlə, Naxçıvan alimlərinin İslam aləmindəki rolu və yeri haqqında ciddi araşdırmalara ehtiyac duyulur. Son illərdə muxtar respublikada mənəvi dəyərlərimizə böyük diqqət və qayğı ilə yanaşılması, yeni məscidlərin inşa olunması, mədrəsələrin yaradılması istiqamətində davamlı işlər görülməsi İslamla bağlı keçmişimizin daha ətraflı öyrənilməsinə əsaslı zəmin yaradır. Əminliklə demək olar ki, tədqiqatçılarımız İslam tariximizlə bağlı gələcəkdə müfəssəl əsərlər ortaya qoyaraq, Naxçıvanın İslam aləmindəki mühüm rolunu bütün dünyaya nümayiş etdirmək imkanı yaradacaqlar.

**Səbuhi HÜSEYNOV**

Yaşıl guşə

# Şərq ölkələrinin qiymətli bitkisi – püstə

***Şərq ölkələrinin qiymətli bitkisi sayılan püstə, ölkəmizin subtropik zonalarında saqqızağacı və ya kütyarpaq püstə kimi yabanı formada geniş ərazilərdə yayılıb. Lakin buna baxmayaraq, peşəkar bağbanlar tərəfindən mədəni halda da becərilən növlərdən istifadə edilərək geniş bağlar salınır. Tədqiqatçıların apardıqları ekspedisiyaların nəticələri göstərir ki, Azərbaycanda, əsasən, Kür-Araz düzənliyində, Eldaroyuğu dağında, Alazan-Əyriçay vadisi meşələrində dəniz səviyyəsindən 600 metr yüksəkliyədək ərazilərdə daha geniş yayılıb. Məlum mənbələrdən aydın olur ki, püstənin yayıldığı geniş sahə Sultanbud meşə yaylası və Türyançay Dövlət Qoruğu ərazisidir.***



Naxçıvan Muxtar Respublikasında isə ilk dəfə 1978-ci ildə indiki Akademik Həsən Əliyev adına "Araz" Elm-İstehsalat Birliyinin Ordubad dayaq məntəqəsində (Əndəmic kəndi) sınaq üçün tinglər əkilmişdir. Burada aparılan tədqiqat işlərinin nəticəsi göstərmişdir ki, istər əkilib-becərilməsi baxımından, istərsə də məhsul istehsalı baxımından Azərbaycanın digər bölgələrində olduğu kimi, Naxçıvanda da püstə yetişdirmək mümkündür. Hazırda Ordubad rayonunun bəzi fərdi təsərrüfatlarında tək-tək püstə ağaclarına rast gəlinir. Bu bitki toxumları və calaqetmə yolu ilə artırılır.

Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin şöbə müdiri Ədalət Hüseynovla söhbətimiz zamanı o bildirdi ki, püstə sumaqkimilər fəsiləsindən olan pistaciaveral cinsidir. Mil kökləri torpağın 6-7 metr dərinliyinədək işlədiyindən daşlı, gilli, hətta şoranlığa meyilli torpaqlarda belə, bol məhsul verir. O, quraqlığa dözümlüdür, uzunömürlükdə çinarı da üstələyən, 700 ildən 1500 ilədək yaşayan nadir bitkilərdəndir. Yaşlı ağaclardan 70-80 kiloqram məhsul götürülür. Abşeronda Buzovna, Bülbülə sortları 150 kiloqramadək bar verir. Ədalət Hüseynov onu da qeyd etdi ki, püstə ağacının kök sistemi ikimərtəbəli olduğundan, mil köklər dərinə işləyir, üst köklər isə torpağın qaryağış səthinə yaxın əmici tellərlə nəmliyi yaxşı mənimsədiyindən Naxçıvan-Sədərək avtomobil yolunun, Duzdağ massivinə yaxın sahələrdəki torpaqları püstə əkmək üçün əlverişlidir. Püstənin güclü kök sistemi inkişaf etdikcə gövdəsindən hətta 50 metrədək uzaqlaşır, özünə qida və rütubət axtarır. Başqa ağaclarla müqayisədə onun qoz ağacı ilə oxşarlıqları çoxdur. Yaxşı qulluq edildikdə püstə ting əkinindən 5 il sonra bara düşür, ağacın hündürlüyü 3-4 metrdən 8 metrədək çata bilir. Yarpaqları qalın dərili, seyrək çətirlidir. Xəstəlik və ziyanvericilərə qarşı dözümlüdür. Aprel-may aylarında çiçəkləyir, meyvəsi avqustda yetişir. Bitkinin biomorfoloji xüsusiyyətlərini səciyyələndirən əlamətlərdən biri də odur ki, gecböyüyən, uzunömürlü olmaqla, digər qərzəkli və subtropik bitkilərlə müqayisədə quraqlığa çox davamlıdır. Bu da kəskin kontinental iqlimə malik muxtar respublikamızda bitkinin yetişdirilməsinə əlverişli şərait yaradır. Püstənin meyvəsi cəviz, fındıq, badam, şabalıd kimi bərk qutucuq içərisindədir. Nisbətən irimeyvəli sortları yetişəndə ağzı partlaq olur. Bu da qabığın asanlıqla ayrılmasına imkan verir. Meyvəsinin içi nazik, yaşıl pərdəli olur. Tərkibində mədə-bağırsaq, qaraciyər xəstəliklərinin ən faydalı məlhəmi olan 60 faizədək yağ, 25 faizədək zülal, 17 faizədək azotsuz ekstrativ maddələr var. Qovrulduqda dadlı çərəz kimi süfrələrin bəzəyidir.

Ədalət Hüseynov onu da bildirdi ki, bu bitki generativ üsulla (toxumla) təbii halda çox zəif çoxalır. Bunun bir səbəbi də odur ki, toxumları çöl quşları və heyvanları tərəfindən yeyilir. Yabanı formada geniş yayılan ərazilərdə əhali meyvəsini toplayıb ev quşlarının yemləndirilməsində istifadə edirlər. Püstənin yarpağında 15-21 faiz, zədələnən budaq və yarpaqlarda əmələ gələn gözcüklərdə isə bəzən 50 faizə qədər aşı maddəsi olur. Həmin maddədən gön-dəri aşılanmasında, ipək və yun parçaların rənglənməsində, xüsusən xalçaçılıqda müxtəlif (çəhrayı, qara, göyümtül və sair) rənglərin alınmasında istifadə edilir. Ədalət Hüseynov bitkinin maraqlı xarakterik xüsusiyyətlərindən danışarkən dedi ki, püstə çarpaz tozlanan entomofil bitkidir. Həşəratların, əsasən, arıların vasitəsilə tozlanır. Özü-özünü mayalandırmayan steril bitki olduğuna görə birsortlu əkinlərdə meyvə vermir. Əsas sort tozlayıcısı lazımdır. Ona görə də püstə bağlarında eyni vaxtda çiçəkləyən ən azı iki tozlayıcı sort əkmək lazımdır. Aparılan təhlillərin nəticəsi göstərir ki, muxtar respublikada ilkin sınaq əkinlərinin keçirilməsi, Kəngərli rayonunun Böyükdüz, Şahbuz rayonunun Badamlı, Şada, Ordubad rayonunun Kotam, Əylis, Culfa rayonunun Gülüstan, Camaldın, Ərəzin, Babək rayonunun Nəcəfəlidizə, Pircüvar massivində, Şərur rayonunun Tənənəm düzü massivindəki kənd təsərrüfatına az yararlı torpaqlarda daha məqsədəuyğundur. Naxçıvan şəraitində püstə bağının salınması üçün optimal müddət, əsasən, yazda mart ayının üçüncü ongünlüyüdür. Adətən əkildikdən 5 il sonra məhsul verir.

Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşı Elçin Kazımovun verdiyi məlumata görə, cari ilin yaz əkini mövsümündə muxtar respublika ərazisində 225 hektar sahədə yeni meyvə bağları salınıb, meşəsalma və meşəbərpa tədbirləri həyata keçirilib. Aparılan yaşıllaşdırma tədbirlərində 200 mindən çox meşə, meyvə tingləri, həmişəyaşıl ağac, bəzək və gül kolları əkilib. Tingçilik təsərrüfatlarında 450 mindən çox əkinəyararlı ting yetişdirilib.

Naxçıvan-Sədərək avtomobil yolunun Kəngərli rayonu ərazisindən keçən hissəsində salınmış 100 hektarlıq püstə bağında da mövsümə uyğun olaraq işlər görülür. Burada dibçəkdə olan püstə tingləri ilə bərpa aparılır, ağaclara aqrotexniki qaydada qulluq edilir, damcı üsulu ilə suvarılır.

Qeyd edək ki, bu il püstə bağında cərgələrarası şum aparılıb, bağın ətrafında 2 hektardan artıq alma bağı salınıb. Burada da yeni əkilmiş tinglərə qulluq edilir. Hazırda yaşıllıq zolaqlarında, meşə massivlərində becərmə işləri davam etdirilir.

Heç şübhəsiz ki, ilk dəfə olaraq kütləvi şəkildə Naxçıvan torpağında sənaye üsulu ilə salınan püstə bağının bara düşməsindən sonra qənnadı, boyaq və ağac emalı sənayesi üçün lazımi xammal mənbəyi yaranacaq. Püstədən alınan ətirli qatran həmişə diqqəti cəlb etmişdir. Belə ki, bu qatran növündən tibdə daxili yaraların sağalmasında, mədə-bağırsaq xəstəliklərinin müalicəsində, yüksəkkeyfiyyətli boya, rəng hazırlanmasında istifadə edilir. Adi püstənin meyvəsindən alınmış yağ zeytun yağına bərabərdir. Bu yağdan vərəm və ciyər xəstəliklərində şəfaverici vasitə kimi istifadə olunur, eyni zamanda ürək fəaliyyətinin nizamlanmasına müsbət təsir göstərir.

**Ramiyyə ƏKBƏROVA**

## Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən 25 dekabr 2017-ci il tarixdə açıq hərraca çıxarılacaq əmlaklar haqqında məlumat

| Sıra №-si | Hərraca çıxarılacaq əmlak | Əmlakın hüquqi ünvanı | Əmlakın ilkin satış qiyməti (manat) | Əmlakın (15 faiz) güzəştli satış qiyməti (manat) | İlkin satış qiymətinin 5 faiz həcmində hesablanmış behin məbləği (manat) |
|---|---|---|---|---|---|
| 1. | 740 kvadratmetr torpaq sahəsində yerləşən ikimərtəbəli, 4 otaqlı, 85,56 kvadratmetr yaşayış, 37 kvadratmetr qeyri-yaşayış, 216,07 kvadratmetr köməkçi sahədən ibarət fərdi yaşayış evi | Naxçıvan şəhəri, V.Qasımov küçəsi | 70 000 | 59 500 | 3 500 |
| 2. | 674 kvadratmetr torpaq sahəsində yerləşən birmərtəbəli, 2 otaqlı, 56,3 kvadratmetr yaşayış, 21,3 kvadratmetr qeyri-yaşayış, 13,4 kvadratmetr köməkçi sahədən ibarət fərdi yaşayış evi | Naxçıvan şəhəri, M.S.Ordubadi küçəsi, ev 5 | 75 000 | 63 750 | 3 750 |
| 3. | Culfa şəhəri, M.Hüseynzadə küçəsindəki ikimərtəbəli binanın 1-ci mərtəbəsində yerləşən 234 kvadratmetr qeyri-yaşayış sahəsi | Culfa şəhəri, M.Hüseynzadə küçəsi | 41 350 | 35 147,5 | 2 067,5 |
| 4. | 470 kvadratmetr torpaq sahəsində yerləşən birmərtəbəli, 3 otaqlı, 61 kvadratmetr yaşayış, 50,92 kvadratmetr köməkçi sahədən ibarət fərdi yaşayış evi | Culfa şəhəri, H.Cavid küçəsi, ev 32 | 40 000 | 34 000 | 2 000 |
| 5. | 226 kvadratmetr torpaq sahəsində yerləşən birmərtəbəli, 1 otaqlı, 19,5 kvadratmetr yaşayış, 23,45 kvadratmetr köməkçi sahədən ibarət fərdi yaşayış evi | Naxçıvan şəhəri, G.Əsədov küçəsi, ev 9 | 41 700 | - | 2 085 |
| 6. | Naxçıvan şəhəri, Əcəmi Naxçıvani məhəlləsi, bina 3-də yerləşən 7 saylı mənzil | Naxçıvan şəhəri, Əcəmi Naxçıvani məhəlləsi | 56 500 | - | 2 825 |

Hərracda qanunvericiliyə müvafiq olaraq alıcı hesab edilən, sifarişi və digər zəruri sənədləri təqdim etmiş hüquqi və fiziki şəxslər iştirak edə bilərlər. Hərraca çıxarılan əmlakın ilkin satış qiymətinin 5% məbləğində beh Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzinin müəyyən etdiyi hesablaşma hesabına 22 dekabr 2017-ci il tarixədək ödənilməlidir.

Hərraclarda iştiraka görə hərrac iştirakçılarından qanunvericilikdə müəyyən edilmiş iştirak haqqı Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsindəki AZ21NABZ12360100000000005944 nömrəli hesabına köçürülür.

Sifarişlər Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində (Atatürk 42) qəbul olunacaqdır. Məlumat dərc olunduğu gündən auksionda iştirak etmək arzusunda olan hüquqi və fiziki şəxslər satışa çıxarılan əmlakın sənədləri ilə Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində tanış ola bilərlər.

Auksionda iştirak etmək üçün aşağıdakı sənədlər təqdim olunur:

*- Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən təsdiq edilmiş formada sifariş;*

*- ödəniləcək behin qəbzi;*

*- hüquqi şəxslər üçün təsis sənədlərinin müəyyən olunmuş qaydada təsdiq edilmiş surəti;*

*- fiziki şəxslər üçün şəxsiyyəti təsdiq edən sənədin surəti.*

Hərrac 25 dekabr 2017-ci il tarixdə, saat 11[00]-da Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində keçiriləcək.

***Əlavə məlumatı Auksion Mərkəzindən ala bilərsiniz.***

***Əlaqə telefonu: 545-01-38***

## "Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq" devizi altında yarışlar keçirilib

Naxçıvan şəhər 3 nömrəli tam orta məktəbin idman zalında "Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq" devizi altında Naxçıvan şəhər tam orta məktəblərinin oğlan komandaları arasında basketbol birinciliyi keçirilib. Birincilikdə 6 komanda iştirak edib.



Beynəlxalq Basketbol Federasiyasının mövcud qaydalarına əsasən Olimpiya sistemi üzrə keçirilən yarışda 17 nömrəli tam orta məktəbin komandası bütün rəqiblərinə qalib gələrək birinci yerə layiq görülüb. 10 nömrəli tam orta məktəbin komandası ikinci, 3 və 5 nömrəli tam orta məktəblərin komandaları isə üçüncü olublar.

Sonda qaliblərə təşkilatçıların diplomları təqdim edilib.

* * *



Şahbuz rayonunun şəhər və kənd icra nümayəndəliklərinin kişilərdən ibarət voleybol komandaları arasında "Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq" devizi altında keçirilən rayon birinciliyinə yekun vurulub.

Rayon Gənclər və İdman İdarəsi ilə Naxçıvan Muxtar Respublikası Voleybol Federasiyasının Şahbuz rayon bölməsinin birgə təşkil etdiyi yarışda 10 komanda iki yarımqrupda mübarizə aparıb.

Gərgin keçən yarışın final oyununda Şahbuz şəhər komandası Külüs kənd komandasını 3:2 hesabı ilə məğlub edərək birinciliyin qalibi olub. Keçili kənd komandası isə üçüncü yerdə qərarlaşıb.

Qalib komandalar təltif olunub.

## İdmançılar tibbi müayinə ediliblər

*Şahbuz Rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə idmançıların həkim müayinəsindən keçirilməsinə başlanılıb.*

Əvvəlcə Naxçıvan Muxtar Respublikası Şərq Döyüş Sənəti, Yüngül Atletika federasiyalarının rayon bölmələrinin idmançıları Şahbuz Rayon Mərkəzi Xəstəxanasında həkim müayinəsindən keçiblər.

Həkimlərdən Elvin Rzayev, Təmleyxa Cəbiyev, Əli Qurbanov, Xaqani Tarverdiyev və Elvin Gülməliyev tərəfindən idmançılar yoxlanılıb və onlara lazım olan məsləhətlər verilib.

Müayinələr noyabr ayının 30-na kimi davam etdiriləcək.

Qeyd edək ki, ötən gün Şərq Döyüş Sənəti Federasiyasının Şərur rayon bölməsinin idmançıları da tibbi müayinə olunublar.

**Ceyhun MƏMMƏDOV**

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 959